

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 17 (23.659)

27 yanvar 2021-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 26-da Fransanın Avropa və Xarici İşlər Nazirliyinin dövlət katibi Jan Batist Lömuanı qəbul edib.

Dövlət katibi Jan Batist Lömuan dörd il əvvəl Azərbaycana səfərini və Bakıda Fransız-Azərbaycan Universiteti – UFAZ-ın yeni tədris binasının açılışında iştirakını məmnunluqla xatırlayıb.

Söhbət zamanı regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb, Azərbaycan-Fransa əlaqələrinin gündəliyinə toxunulub.

Görüşdə qarşılıqlı maraqdoğuran məsələlər müzakirə olunub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 26-da Rəşad Nəbiyevi Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edib.

Dövlətimizin başçısı qəbulda çıxış edərək görülmüş tədbirlər nəticəsində bu gün Azərbaycanın nəqliyyat sahəsində dünyada lider dövlətlərdən biri olmasından, rabitə və yüksək texnologiyalar sahəsində bölgədə mərkəzi rol oynamasından bəhs edib. Ölkəmizin başçısı Azərbaycanda texnologiyaların inkişafı sahəsində daha böyük addımlar atılacağından, bu işdə nazirliyin üzərinə düşən funksiyalardan danışıb.

Nazir Rəşad Nəbiyev dövlət başçısını əmin edib ki, iqtisadi islahatların dərinləşməsi prosesinə sahə nazirliyi olaraq töhfə verə bilmək üçün əllərindən gələni əsirgəməyəcəklər.

# İlin yekunları və sessiyadan irəli gələn vəzifələr müzakirə edilib



***Naxçıvan Dövlət Universitetində 2020-ci ilin yekunlarına və altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin dördüncü sessiyasında qarşıya qoyulan vəzifələrə dair müşavirə keçirilib.***

Universitetin rektoru Elbrus İsayev müşavirədə qeyd edib ki, Naxçıvanda ulu öndər Heydər Əliyevin siyasi kursuna böyük ehtiramın ifadəsidir ki, muxtar respublikada ötən ildə də təhsil siyasəti uğurla həyata keçirilib. Universitetdə 2020-2021-ci tədris ilinin əvvəlində aktuallıq kəsb edən yeni Robotexnika, Camışçılıq, Mikologiya və mikotoksikologiya, Naxçıvan xalçaçılıq məktəbi, Atıcılıq və digər fənlərin tədrisinə başlanılıb. Elektroenergetika mühəndisliyi ixtisası tələbələrinin istifadəsi üçün günəş və külək enerjisi qurğusu quraşdırılıb, Texnologiya və Atıcılıq Mərkəzi, Kriminalistika laboratoriyası və bir neçə yeni fənn kabinəsi, “Yaşıl əczaxana” yaradılıb. Universitet xəstəxanasında ötən ilin may ayından etibarən Cərrahiyyə, Laboratoriya və Göz şöbələri də fəaliyyətə başlayıb.

Elbrus İsayev qeyd edib ki, ali təhsil ocağında müasir maddi-texniki bazanın gücləndirilməsi tədbirlərinin davamı olaraq Xarici dillər fakültəsi üçün də yenidən qurulan və əsaslı surətdə bərpa edilən binanın yaxın günlərdə istifadəyə hazır olması göstərilən diqqət və qayğının bariz nümunəsidir.

Bildirilib ki, xarici tələbələrin dinamikasında əldə edilən yüksək səviyyədə artım ali təhsil ocağının beynəlxalq əlaqələrinin düzgün və sistemli idarə edilməsi nəticəsində mümkün olub. Hazırda universitet xarici tələbələrin müraciəti və qəbul sayına görə ölkə üzrə öncüllüyünü qoruyur. Bakalavr pilləsində 700, magistraturada 5, o cümlədən hazırlıq şöbəsində 312 əcnəbi tələbə təhsil alır. Ali Məclis Sədrinin xüsusi tapşırığı ilə muxtar respublikada təhsil alan və dünyada yayılmış koronavirus pandemiyasına görə ölkələrinə gedə bilməyən əcnəbi tələbələrə vaxtaşırı olaraq ərzaq payı, maddi yardım  təqdim edilib.

Ali təhsil müəssisəsinin imkanlarını daha da genişləndirməklə yanaşı, innovativ layihələrin dəstəklənməsinə və keyfiyyətli kadr hazırlığına geniş imkanlar açacaq Texnologiyalar Parkının yaradılması universitet tarixində ən mühüm yenilikdir. 2020-2021-ci tədris ilində universitetdə ilk dəfə ingilis dilində İqtisadiyyat ixtisasının tədrisinə başlanılıb. İncəsənət fakültəsi ixtisasları Türkiyə Cümhuriyyəti yeni tələbə qəbulu planına daxil edilib.

Qeyd olunub ki, 2020-ci ildə ali təhsil ocağının iki əməkdaşı ixtiralarına görə Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi tərəfindən patent alıb.

Ötən ildə universitetdə startap layihələrin sayı daha da artıb. İqtisadiyyat və idarəetmə fakültəsinin tələbəsinin təqdim etdiyi “Vita blok” startap layihəsi muxtar respublika üzrə qalib olub.

Hesabat dövründə ali təhsil ocağında 2 beynəlxalq, 6 respublika səviyyəli elmi konfrans, müxtəlif mövzularda vebinar-təlimlər keçirilib. 2020-ci ildə universitet əməkdaşlarının 3 monoqrafiyası, 1 dərsliyi, 15 dərs vəsaiti, 27 metodik vəsaiti və proqramı, 307 elmi məqaləsi və 153 konfrans materialı çap olunub. Məqalələrdən 12-si Web of Science məlumat bazasına daxil olan jurnallarda, 7-si Scopus, 10 məqalə isə sahə indeksli elmi jurnallarda dərc edilib.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib, universitetin elmi-ictimai və mədəni mühitində fəallıq göstərən müəllim və tələbələr mükafatlandırılıb.

* * *



Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsində keçirilən kollegiya iclasını idarənin sədri Elvin Axundov açaraq bildirib ki, Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən banklar və kredit təşkilatları tərəfindən 1 yanvar 2021-ci il tarixə muxtar respublikanın iqtisadiyyatına yönəldilən kredit qoyuluşu 212 milyon 399 min manat, o cümlədən qısamüddətli kredit qoyuluşu 7 milyon 934 min manat, uzunmüddətli kredit qoyuluşu isə 204 milyon 465 min manat təşkil edir. Kredit qoyuluşu, əsasən, Dövlət proqramlarının icrasına, real sektorun, kiçik və orta sahibkarlığın inkişafına yönəldilib. Bank və kredit təşkilatları tərəfindən 2020-ci ilin yanvar-dekabr ayları ərzində 179 milyon 473 min manat kredit verilib ki, bunun da 18 milyon 893 min manatını qısamüddətli, 160 milyon 580 min manatını isə uzunmüddətli kreditlər təşkil edir. Verilmiş kreditlərin 13 milyon 357 min manatı kənd təsərrüfatı, 18 milyon 561 min manatı sənaye, 562 min manatı tikinti, 4 milyon 397 min manatı kommersiya, 1 milyon 112 min manatı nəqliyyat, rabitə və informasiya, 3 milyon 571 min manatı daşınmaz əmlakla əlaqədar ipoteka kreditlərinin verilməsinə, 922 min manatı səhiyyə və sosial xidmət sahəsinə,136 milyon 991 min manatı isə digər kommunal, sosial və istehlak kreditlərinin verilməsi kimi sahələrə yönəldilib. Həmçinin kredit təşkilatları tərəfindən 2020-ci il ərzində 186 fiziki şəxsə 237 ədəd olmaqla, 5 milyon 97 min manat dəyərində lizinqə verilmiş kənd təsərrüfatı texnikası üzrə lizinq xidməti göstərilib.

Qeyd edilib ki, 2020-ci ilin yanvar-dekabr ayları ərzində 153-ü hüquqi, 36391-i fiziki şəxs olmaqla, 36544 müştəriyə yeni bank hesabı açılıb. Açılmış bank hesablarının 36519-u işlək hesab olub ki, onların 149-u hüquqi, 36370-i fiziki şəxsdir.

Vurğulanıb ki, ödəniş sistemlərinin inkişaf etdirilməsi, iqtisadi fəaliyyət göstərən şəxslərin və əhalinin elektron ödəniş sistemlərindən daha fəal istifadə etməsi məqsədilə POS-terminalların quraşdırılması diqqət mərkəzində saxlanılıb, onların sayı 1 yanvar 2021-ci il tarixə 690 ədədi Naxçıvan şəhərində, 720-si isə rayon və kənd mərkəzlərində olmaqla, 1410 ədəd təşkil edib. Hesabat ili ərzində POS-terminallar və digər ödəniş vasitələri ilə aparılan nağdsız əməliyyatların həcmi 89 milyon 399 min manat olub və ötən ilin müvafiq dövrü ilə müqayisədə 43 milyon 848 min manat artıb. Aparılan nağdsız ödənişlərin 31 milyon 542 min manatı POS-terminallar vasitəsilə, 57 milyon 857 min manatı isə internet və digər ödəniş vasitələri üzərindən həyata keçirilib. Həmçinin 1 yanvar 2021-ci il tarixə elektron ödəniş kartı alanların ümumi sayı 265 min 583 nəfər təşkil edib.

Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında” Sərəncamının icrası ilə əlaqədar olaraq Naxçıvan Dövlət Texniki Kollecinin Bank işi ixtisasının tələbələri ilə onlayn şəkildə dərslər keçilib, videoqörüşlər zamanı tələbələrin hazırlıq səviyyəsi yoxlanılıb. Eyni zamanda tələbələrin muxtar respublikada fəaliyyət göstərən banklarda dövlət imtahanı qabağı təcrübə keçmələri təşkil edilib.

Sonra çıxışlar dinlənilib.



Azərbaycan Respublikası Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsinin iclasında idarənin rəisi Hafiz İsmayılbəyli məruzə edərək bildirib ki, idarənin kollektivi 2020-ci ildə qarşıya qoyulmuş tapşırıqların icrasını təsdiq edilmiş iş planına əsasən həyata keçirib. İş planına uyğun olaraq idarənin 2019-cu ildə fəaliyyəti haqqında hesabat, Naxçıvan Muxtar Respublikasının 2019-cu il büdcəsinin icrası haqqında illik hesabata və Naxçıvan Muxtar Respublikasının 2021-ci il büdcə layihəsinə rəylər hazırlanıb.

Qeyd olunub ki, idarə tərəfindən 2020-ci il üçün təsdiq olunmuş iş planına uyğun olaraq 2020-ci ildə Naxçıvan Muxtar Respublikası büdcəsinə kənar dövlət maliyyə-nəzarəti tədbirləri çərçivəsində 11 müəssisə, idarə və təşkilat üzrə tədbirlərin planlaşdırılması, proqramları, işçi planları hazırlanaraq maliyyə və uyğunluq auditləri həyata keçirilib. Eyni zamanda dövr ərzində 8 müəssisə, idarə və təşkilat üzrə analitik təhlil aparılaraq nəticələri müvafiq qaydada rəsmiləşdirilib. 2020-ci ildə həyata keçirilmiş kənar dövlət maliyyə nəzarəti tədbirləri, ümumilikdə, 75281,4 min manat məbləğində vəsaiti əhatə etməklə, 54154,7 min manatı aparılmış analitik təhlillər və 21126,7 min manatı isə keçirilmiş auditlərin payına düşüb.

Bildirilib ki, idarə tərəfindən həyata keçirilmiş nəzarət tədbirlərinin dövlət büdcəsinin funksional təsnifatı üzrə strukturu ümumi dövlət xidmətləri bölməsi üzrə 5, Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq bölməsi üzrə 1, Təhsil bölməsi üzrə 4, Səhiyyə bölməsi üzrə 1, Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət bölməsi üzrə 2, mənzil və kommunal təsərrüfatı bölməsi üzrə 1, Kənd təsərrüfatı bölməsi üzrə 1, Ətraf mühitin mühafizəsi bölməsi üzrə 1, İqtisadi fəaliyyət bölməsi üzrə 2, publik hüquqi şəxs üzrə 1 təşkilatdan ibarət olub. İdarə tərəfindən 8 təşkilat üzrə aparılan analitik təhlilin altısında maliyyə hesabatlarının düzgün doldurulmadığı müəyyən edilib.

Qeyd olunub ki, idarə tərəfindən audit subyektlərinə ayrılan büdcə və büdcədənkənar vəsaitlərin təftişinin aparılması ilə yanaşı, təşkilatlara həmin vəsaitlərin daha da səmərəli xərc edilməsi istiqamətində lazımi təlim-tövsiyələr verilib. Audit qruplarının üzvləri tərəfindən təşkilatlarda qanunvericilikdə nəzərdə tutulmuş formada sənədləşmənin aparılmasına və maliyyə-hesabat formalarının tərtib edilməsinə dair maarifləndirmə işləri aparılıb. Kənar dövlət maliyyə nəzarəti tədbirləri zamanı aşkar edilmiş nöqsan və çatışmazlıqların aradan qaldırılması üçün müvafiq təşkilatlara məktub göndərilib.

Sonra çıxışlar olub.

**Xəbərlər şöbəsi**

# Torpaqlardan səmərəli istifadəyə, onların mühafizəsi, uçotu və xəritələşdirilməsinə ciddi önəm verilir

***Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti öz işini qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi istiqamətində quraraq 2020-ci ili uğurla başa vurub. Torpaqlardan əhalinin səmərəli istifadə etməsi, bu qiymətli sərvətin mühafizə olunması üçün ilin əvvəlində hazırlanmış tədbirlər planına əsasən xeyli iş görülüb. Görülən işlərdə torpaqların uçotuna, xəritələşdirilməsinə də ciddi önəm verilib.***

Məqsəd isə ondan ibarətdir ki, iqtisadiyyatın inkişafında mühüm rola malik olan kənd təsərrüfatında qazanılan uğurlar, əldə edilən müvəffəqiyyətlər daha da artırılsın, daxili bazarda yerli məhsulun həcmi çoxaldılsın. Bununla bağlı xidmətin Torpaq məsələləri şöbəsinin müdiri İntizar Həziyevlə həmsöhbət olduq. O, 2020-ci ildə görülmüş işlər və 2021-ci ildə qarşıda duran vəzifələr barədə ətraflı məlumat verdi. Öyrəndik ki, ötən il ərzində suvarılan torpaq sahələrinin genişləndirilməsi və su təminatının yaxşılaşdırılması məqsədilə Şahbuz rayonunun Külüs kəndi ərazisində





288, Mahmudoba kəndi ərazisində 37, Nursu kəndi ərazisində 15 hektar olmaqla, cəmi 340, Şahbuz rayonunun Sələsüz, Mərəlik və Türkeş kəndlərinin ərazisində qapalı suvarma şəbəkəsinin tikintisi aparılmış 270, Gilançaydan qidalanması nəzərdə tutulan suvarma xəttinin əhatə etdiyi Culfa rayonu üzrə 603, Ordubad rayonu üzrə 587 hektar olmaqla, cəmi 1190 hektar, Kəngərli rayonunun dövlət ehtiyat fondunda və Böyükdüz bələdiyyəsinin ərazisində qapalı suvarma şəbəkəsinin tikintisi aparılmış 810 hektar torpaq sahəsində, o cümlədən Araz Su Anbarı üzərində qurulacaq yeni nasos stansiyasından qidalanması nəzərdə tutulan suvarma şəbəkəsinin əhatə etdiyi 2091 hektar ərazidə topoqrafik planaalma işləri aparılıb, hazırlanmış xəritə materialları aidiyyəti orqanlara göndərilib.

Əkinlərin planlaşdırılmasının asanlaşdırılması, əkin dövriyyəsinə qatılması, suvarılan torpaq sahələrinin genişləndirilməsi üçün yeni ərazilərin müəyyənləşdirilməsi məqsədilə muxtar respublikanın bütün şəhər və rayonları üzrə suvarılan torpaq sahələrinin xəritələri nəşr olunub, aid mərkəzi və yerli icra hakimiyyəti orqanlarına göndərilməsini diqqətimizə çatdıran İntizar Həziyev onu da bildirdi ki, bu dövrdə torpaqların qida maddələri ilə təminolunma kartoqramlarının yenilənməsi davam etdirilib. Şərur rayonunun 5, Babək rayonunun 2, Ordubad rayonunun 3, Şahbuz rayonunun 3, Kəngərli rayonunun 4 bələdiyyəsi üzrə işçi planlar hazırlanaraq torpaq analizlərinin aparılması üçün təhvil verilib, Şərur rayonunun Xanlıqlar, Ələkli, Dərvişlər, Çəmənli, Kosacan və Siyaqut, Kəngərli rayonunun Böyükdüz, Xok və Xıncab bələdiyyələrinin dövlət ehtiyat fondunda əkinəyararlı torpaq sahələrinin qida maddələri ilə təminolunma kartoqramları yenilənib.

Müsahibimin sözlərinə görə, muxtar respublikanın bütün şəhər və rayonlarında torpaq mülkiyyətçiləri, icarəçiləri və istifadəçiləri ilə görüşlər keçirilib, əkin atlaslarına uyğun əkin aparılması, torpaqların münbitliyinin qorunması, artırılması, müasir əkin üsullarının və texnologiyalarının əhəmiyyəti barədə maarifləndirmə işləri aparılıb. Torpaqların qida maddələri ilə təmin edilməsinə dair hazırlanmış yeni kartoqramlar müvafiq bələdiyyələrə təqdim olunub, onlara kartoqramlardan istifadə qaydaları izah edilib. Torpaqlardan səmərəli istifadə və onların mühafizəsi sahəsində qanunvericiliyin tələbləri tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

İntizar Həziyev onu da dedi ki, "Naxçıvan Muxtar Respublikasında torpaq münasibətlərinin tənzimlənmə sahəsində əlavə tədbirlər haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 2 aprel tarixli Fərmanı ilə müəyyənləşdirilmiş vəzifələrin icrası məqsədilə 2020-ci il ərzində torpaqların elektron kadastr uçotu informasiya sisteminin fəaliyyəti üçün proqram təminatının təkmilləşdirilməsi ilə bağlı işlər davam etdirilib.

Öyrəndik ki, bu dövrdə torpaq sahələrinin konturlarının çöl geodeziya ölçmə işləri aparılmaqla dəqiqləşdirilməsi və parametrlərin torpaqların elektron kadastr uçotu informasiya sisteminə daxil edilməsi diqqət mərkəzində saxlanılıb. Bu məqsədlə yüksək dəqiqlikli geodeziya-ölçü avadanlıqları vasitəsilə muxtar respublikanın bütün ərazisində daşınmaz əmlak obyektlərinin plana alınması başa çatdırılıb, ümumilikdə, muxtar respublika üzrə 7157 daşınmaz əmlak obyekti plana alınıb. İl ərzində planaalma işləri aparılmış ərazilərdə



fiziki-hüquqi şəxslərin mülkiyyətindəki və qanuni istifadəsindəki fərdi yaşayış evlərinin həyətyanı sahələrinin və torpaq islahatı zamanı verilmiş pay torpaqlarının hüquqi texniki sənədlərindəki məkan göstəriciləri ilə torpaqların faktiki istifadə vəziyyətinin məkan göstəriciləri arasındakı mövcud uyğunsuzluqlar müəyyənləşdirilib və aradan qaldırılıb.

İntizar Həziyevin sözlərinə görə, torpaqdan istifadəyə dövlət nəzarətinin həyata keçirilməsi üçün sistem "Nəzarət və monitorinq" modulu, daşınmaz əmlakın texniki pasportunun hazırlanaraq çap olunması, həmçinin dövlət və bələdiyyə mülkiyyətində olan torpaq sahəsi üzərində kadastr əməliyyatlarının aparılması üçün yeni funksionallıqlar əlavə edilib. Həmçinin torpaq sahəsinin formalaşdırılması, kadastr uçotuna daxil edilməsi, torpaq sahələri üzərində kadastr əməliyyatlarının aparılması diqqətdə saxlanılıb. Torpaq sahəsi üzərində tikililər yerləşdirilməsi bölgü planının hazırlanması ilə bağlı əməliyyatların aparılması zamanı qarşıya çıxan nöqsan və çatışmazlıqların aradan qaldırılması üçün müzakirələrə ciddi önəm verilib, mövcud funksionallıqların təkmilləşdirilməsi üçün təkliflər hazırlanıb.

Bəhs olunan dövrdə xüsusi proqram təminatı vasitəsilə sistemə daxil ediləcək məlumatlar miqrasiyası prosesi davam etdirilib, Şərur, Sədərək, Kəngərli və Şahbuz rayonlarının bütün bələdiyyələri üzrə reyestr məlumatları yeni xəritələrin üzərinə köçürülüb. Aşkar olunan uyğunsuzluqlar naturada aparılmış dəqiqləşmələr nəticəsində aradan qaldırılıb. Naxçıvan şəhəri və ətraf yaşayış məntəqələri, Şərur, Babək, Ordubad, Culfa və Kəngərli rayonları üzrə bütün torpaq sahələrinə dair məlumatlar dürüstləşdirilərək sistemə daxil edilib.

2020-ci ildə əkinəyararlı torpaqların təyinatı üzrə səmərəli istifadə olunmasına nəzarətin gücləndirilməsi, torpaq sahələrindən təyinatına uyğun olmayan digər məqsədlər üçün istifadənin qarşısının alınması barədə xidmətə verilmiş tapşırıqların icrasına da önəm verilib. Belə ki, Babək rayonunun yaşayış məntəqələrində aparılan monitorinqlər başa çatdırılıb, Şərur və Kəngərli rayonlarında monitorinqlərə başlanılıb. İl ərzində Babək rayonunun 10, Şərur rayonunun 22, Kəngərli rayonunun 5 yaşayış məntəqəsində monitorinqlər aparılıb, torpaqdan qanunsuz istifadəyə dair aşkar edilmiş faktlar aradan qaldırılıb.

Öyrəndik ki, bəhs olunan dövrdə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi ilə birlikdə muxtar respublikanın şəhər və rayonlarında daşınmaz əmlaka mülkiyyət hüququnun yaranmasının əsasları və bələdiyyə torpaqlarından təyinatı üzrə istifadə edilməsi ilə bağlı seminarlar keçirilib.

Kənd təsərrüfatına yararlı torpaqlardan kateqoriyalar üzrə səmərəli istifadə istiqamətində verilmiş tapşırıqların icrası, ərazi vahidləri üzrə dəqiqləşdirilmiş əkin dövriyyəsindən kənarda qalan əkinəyararlı torpaq sahələrinin müəyyənləşdirilməsi diqqətdə saxlanılıb.

Əkin dövriyyəsindən kənarda qalan əkinəyararlı torpaq sahələrinin sərhədləri xidmətin məlumat bazasında saxlanılan ortofotoplanlar və aerokosmik şəkillər vasitəsilə kameral şəraitdə dəqiqləşdirilib, elektron məlumat bazasına yığılıb.

Müsahibim onu da diqqətimizə çatdırdı ki, torpaqların şorlaşma, şorakətləşmə, müxtəlif antropogen və texnogen çirklənmələrdən mühafizəsi, bu cür ərazilərin müəyyənləşdirilməsi, xəritələşdirilməsi və yenidən əkin dövriyyəsinə qatılması ilə bağlı tədbirlərin həyata keçirilməsi məqsədilə xidmət tərəfindən Kənd Təsərrüfatı, Ekologiya və Təbii Sərvətlər nazirliklərinin, Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mütəxəssislərinin iştirakı ilə komissiya yaradılıb. Komissiya tərəfindən iki ay (avqust-sentyabr) müddətində muxtar respublika ərazisində monitorinqlər aparılıb, müxtəlif amillərin təsiri ilə deqradasiyaya məruz qalmış torpaq sahələri müəyyənləşdirilib. Ordubad rayonunda 67, Culfa rayonunda 958, Babək rayonunda 795, Kəngərli rayonunda 1291, Şərur rayonunda 1573, Sədərək rayonunda 3261, Naxçıvan şəhərində 638 hektar olmaqla, müəyyənləşdirilmiş cəmi 8583 hektar torpaq sahəsinin eksplikasiyası tərtib edilib, planları hazırlanaraq toplu şəklində nəşr olunub. Monitorinqlər zamanı ərazilərdən götürülmüş torpaq nümunələrinin laborator analizləri aparılıb, analiz nəticələri, torpaqların mülkiyyət növləri və uqodiyalar üzrə hesabat cədvəlləri tərtib edilib. Hazırlanmış xəritə materialları və hesabat cədvəlləri müvafiq tədbirlərin görülməsi üçün aidiyyəti üzrə təqdim olunub.

Son olaraq onu da qeyd edək ki, "Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin artırılması ilə bağlı tədbirlər haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 27 noyabr tarixli Sərəncamı ilə qarşıya qoyulmuş vəzifələrin icrası ilə bağlı müzakirə keçirilib, iş planı təsdiq edilib. 2021-ci ilin ilk günlərindən başlayaraq həmin tədbirlərin icrasına start veriləcək.

**Muxtar MƏMMƏDOV**

# Keyfiyyət amili diqqətdə saxlanılır

İstehsal və xidmət sferasının bütün sahələrində müasir keyfiyyət standartlarının tətbiqinə nail olmaq muxtar respublikada həyata keçirilən sosial-iqtisadi inkişaf siyasətinin mühüm tərkib hissəsidir. Bu çərçivədə əhalinin sağlamlığının və alıcılıq qabiliyyətinin qorunub saxlanılmasına, keyfiyyətli yerli məhsulların istehsalının təşviqinə xidmət edən müxtəlif nəzarət tədbirləri Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin qarşısına qoyulmuş mühüm və təxirəsalınmaz vəzifələrdəndir. Bu istiqamətdə həyata keçirilən tədbirlər ötən ilin dekabr ayında da davam etdirilmiş və xidmət tərəfindən yerli məhsulların daxili və xarici bazarlarda rəqabətədavamlı olması üçün keyfiyyət standartlarına əməl edilməsinə nəzarət işi, o cümlədən təsərrüfat subyektlərinin istehsal-xidmət şəraitinin və məhsul göstəricilərinin texniki normativ-hüquqi aktların, standartların və texniki şərtlərin tələblərinə uyğunluğu diqqətdə saxlanılmışdır. Ay ərzində məhsul nümunələrinin, ümumilikdə, 125, o cümlədən qida məhsullarının 109 halda keyfiyyət və təhlükəsizlik göstəricilərinin yoxlanılması təmin olunmuş və bu istiqamətdə ciddi nöqsanlar aşkar edilməmişdir.

Yerli istehsal məhsullarının keyfiyyətinin qorunması prioritet vəzifə kimi diqqətdə saxlanılır. Bu məqsədlə hesabat dövrü ərzində 47 qida istehsalı müəssisəsinə maarifləndirmə xarakterli baxış keçirilmiş, aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması istiqamətində müvafiq işlər görülmüşdür. Meyvə-tərəvəz və onlardan hazırlanmış məhsulların keyfiyyətinin nəzarətdə saxlanılması məqsədilə sertifikatlaşdırma prosedurları və monitorinqlər üzrə, ümumilikdə, məhsulların 34 halda texniki normativ-hüquqi aktların, standartların və texniki şərtlərin tələblərinə uyğunluğu yoxlanılmış, nöqsan aşkar edilməmiş və müvafiq məhsulların 5 halda sertifikatlaşdırılması həyata keçirilmişdir.

Muxtar respublika iqtisadiyyatında ailə təsərrüfatı modelinin dəstəklənməsi işi ötən ay da davam etdirilmiş, muxtar respublika üzrə 5 ailə təsərrüfatına istehsal etdiyi məhsulların etiketlərində məhsulun adının və digər məlumatların orfoqrafik qaydalara uyğun yazılması, saxlanma şəraitinin və yararlılıq müddətinin qüvvədə olan standartların tələblərinə uyğun göstərilməsini təmin etmək məqsədilə metodik köməklik göstərilmişdir. İstehlakçıların ailə təsərrüfatı məhsulları haqqında rahat məlumat əldə edə bilməsi və ailə təsərrüfatı məhsullarının aktiv satışının təşviqi məqsədilə hazırlanmış "Kənddən al" mobil tətbiqinin məlumat bazasının aktuallaşdırılması istiqamətində birgə fəaliyyət davam etdirilmişdir.

Ötən ay ev şəraitində araq istehsalı ilə məşğul olan 2 ailə təsərrüfatında minifiltr qurğusunun quraşdırılması təmin edilmiş və müvafiq ailə təsərrüfatlarının sayı 49-a çatmışdır. Alkoqollu içkilərin standartlara uyğunluğu məqsədilə 3 müəssisədə istehsal olunan arağın 4, pivənin 1 və məhsul istehsalında istifadə olunan suyun 1 halda laboratoriya analizləri aparılaraq keyfiyyət və təhlükəsizlik göstəricilərinin texniki normativ-hüquqi aktların, standartların tələblərinə uyğun olduğu müəyyən edilmişdir.

Ticarət və xidmət sektoru əhalinin aktiv müraciət etdiyi sahələrdəndir. Xidmət tərəfindən hesabat ayı ərzində 34 ət satışı mağazasına, 93 ictimai iaşə və xidmət sahəsinə, 22 topdansatış obyektinə, 469 ərzaq və qeyri-ərzaq mağazasına, 13 təhsil müəssisəsinin bufet və ya yeməkxanasına, 167 bərbərxana və 53 gözəllik salonuna maarifləndirmə xarakterli baxış keçirilmiş, aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması təmin edilmişdir. Texniki normativ-hüquqi aktların və standartların tələblərinə uyğun fəaliyyətin qurulması məqsədilə 17 təsərrüfat subyektində, o cümlədən 3 istehsal müəssisəsində, 3 ictimai iaşə və xidmət sahəsində, 1 topdansatış obyektində, 7 mağazada, 2 bərbərxanada və 1 gözəllik salonunda təmir işləri başa çatdırılmışdır.

Dekabr ayında metroloji norma və qaydalara uyğun olaraq 948 ədəd ölçmə vasitəsi yoxlanılmışdır. Ölçmələrin vəhdətinin təmin edilməsinin dövlət tənzimlənməsi sahəsində 12 adda və 68 çeşiddə ölçülüb qablaşdırılmış malların, həmçinin muxtar respublika üzrə fəaliyyət göstərən 26 müəssisənin istehsal etdiyi Azərbaycan milli çörəyi və digər xüsusi hazırlanmış çörək məmulatlarının çəkisinə 242 halda metroloji nəzarət işi aparılmış, nöqsan aşkar olunmamışdır.

Xarici bazarlara çıxış imkanlarının artırılması, xüsusilə diqqət mərkəzindədir. Xarici bazarlara çıxış imkanına malik məhsul istehsalına diqqətin artırılması, istehlak bazarının tələblərinə uyğun rəqabətqabiliyyətli məhsul istehsalının təmin edilməsi, ailə təsərrüfatları məhsullarının ixracına dəstək göstərilməsi üzrə verilmiş tapşırıqların icrası istiqamətində təsərrüfat subyektləri ilə 20 halda informativ xidmət üzrə müqavilə bağlanılaraq istehsal olunan məhsulların ixrac ediləcək ölkələrə uyğun markalanması, beynəlxalq idarəetmə standartlarının tətbiqi, zərurət olduqda ixrac olunan məhsulların partiyalarla sertifikatlaşdırılmasının təmin edilməsi, təsərrüfat subyektlərinə məxsus əmtəə nişanlarının məhsul ixrac ediləcək ölkələrdə beynəlxalq mühafizəsi üçün xidmətlər haqqında məlumatlar müəssisə rəhbərlərinin diqqətinə çatdırılmışdır. İxrac istiqamətində muxtar respublikadan kənara məhsulların göndərilməsi və satışı üzrə fəaliyyət çərçivəsində sahibkarlıq subyektlərinin və ailə təsərrüfatlarının yüksələn iqtisadi aktivliyi ardıcıl qaydada dəstəklənmiş, Bakı və Gəncə şəhərlərində fəaliyyət göstərən "Naxçıvan məhsulları" mağazalar şəbəkəsinə tələbata uyğun olaraq davamlı qaydada məhsulların göndərilməsi təmin edilmişdir.

Hesabat ayında Fövqəladə Hallar Nazirliyi və Dövlət Gömrük Komitəsi ilə birgə fəaliyyətin təmin edilməsi üçün hazırlanan iş planına uyğun olaraq, ümumilikdə, 1428 qaz cihazına baxış keçirilmiş və müvafiq təhlükəsizlik sistemi ilə təmin olunmayan 43 qaz cihazının idxalına icazə verilməmişdir. Ay ərzində, ümumilikdə, texniki normativ-hüquqi aktların, standartların və texniki şərtlərin tələblərinə uyğun olmayan 147,5 manat dəyərində keyfiyyətsiz və ya kontrafakt məhsullar satışdan çıxarılmışdır.

Verilmiş tapşırıqların və qarşıya qoyulmuş vəzifələrin icrası istiqamətində tədbirlər davam etdirilir.

***Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti***

## Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının yekun iclası keçirilib





*Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının 2020-ci ilin yekunları və 2021-ci ildə qarşıda duran vəzifələr mövzusunda iclası keçirilmişdir.*

İclası giriş sözü ilə açan Güləş Federasiyasının sədri Azər Zeynalov muxtar respublikada idmanın inkişafı istiqamətində aparılan dövlət siyasətinin uğurlarından danışmışdır. Bildirilmişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü ilə yaradılan idman federasiyaları, eləcə də yeni tikilən və ya əsaslı təmir olunan idman obyektləri idmanın inkişafına göstərilən dövlət qayğısının bariz nümunəsidir. İdmanın inkişafına göstərilən dövlət qayğısının davamlılığını təmin etmək üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 14 fevral tarixli Sərəncamı ilə “2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı” təsdiq edilmişdir.

Vurğulanmışdır ki, muxtar respublikada fəaliyyət göstərən idman federasiyalarından biri də Güləş Federasiyasıdır. 19 il bundan əvvəl – 2002-ci ildə yaradılan Naxçıvan Muxtar Respublikası Güləş Federasiyası tərəfindən ötən müddət ərzində güləş idman növlərini inkişaf etdirmək, kütləviliyə nail olmaq sahəsində bir sıra işlər görülmüşdür. Federasiyada yunan-Roma, sərbəst güləş, cüdo və sambo idman növləri üzrə bölmələr yaradılmış və bu bölmələrdə, ümumilikdə, 101 qrupda 1449 idmançı güləş idman növləri üzrə məşğələlərdə iştirak edirlər.

Azər Zeynalov qeyd etmişdir ki, 2020-ci ildə federasiya tərəfindən şəhər və rayon birincilikləri təşkil olunmuş, yarışların qaliblərinə diplom və hədiyyələr verilmişdir. Həmçinin idmançıların beynəlxalq yarışda iştirakı təmin edilmişdir. 2020-ci il ərzində Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının idmançıları 1 beynəlxalq, 2 respublika turnirində iştirak etmiş, 5 medal qazanmışlar.

Sonra çıxış edən Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının sədr müavini Faiq İsgəndərov 2020-ci ildə görülən işlər və keçirilən yarışlar barədə məlumat vermişdir.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman naziri Azad Cabbarov isə çıxışında vurğulamışdır ki, nazirlik muxtar respublikamızda 2002-ci ildə yaradılan Güləş Federasiyası ilə birgə idmanın bu sahəsi üzrə kütləviliyin təmin edilməsi məqsədilə bir sıra tədbirlər həyata keçirmişdir. Ötən il Naxçıvan güləşçiləri respublika və beynəlxalq miqyaslı turnirlərdən 5 medal qazanmışlar. Muxtar respublikamızın şəhər və rayonlarını əhatə etməklə, ötən il ərzində 1449 idmançı, 101 fərqli qrupda idmanın bu növü üzrə keçirilmiş hazırlıqlarda, təlim-məşq proseslərində iştirak etmişdir.

Sonra gündəlikdə duran məsələlərlə bağlı qərar layihəsi qəbul edilmişdir.

Güləş Federasiyasının sədri Azər Zeynalov 2021-ci ildə görüləcək işlərlə bağlı tapşırıqlar vermişdir. Bildirilmişdir ki, 2021-ci ildə güləş idman növlərinin inkişafı davam etdirilməli, bu sahədə kütləviliyə nail olunmalı və idman nailiyyətlərini yüksəltmək məqsədilə fəaliyyət daha da gücləndirilməlidir. Federasiyanın 2021-ci il üçün hazırladığı Tədbirlər Planında nəzərdə tutulan tədbirlərin vaxtında icrası təmin edilməlidir. İdmançıların ölkə və beynəlxalq yarışlara hazırlıq səviyyəsi artırılmalı, güləşin bütün növləri üzrə yarışlar təşkil olunmalıdır. Məşqçilər peşəkarlıq səviyyəsini artırmalıdır. Bu məqsədlə tanınmış məşqçilərin muxtar respublikaya dəvət edilməsi, burada seminar və məşğələlər keçirmələri diqqətdə saxlanılmalıdır. Muxtar respublikada daxili yarışların keçirilməsi təmin edilməli, güləş idman növlərinin şəhər və rayonlarda kütləviliyinə və inkişafına nail olunmalıdır. Federasiyanın bölmələri fəaliyyətlərini gücləndirməlidir. Gənclərin bölmələrə cəlbi, eləcə də bölmələrarası güləş yarışlarının keçirilməsinin təşkili diqqətdə saxlanılmalı, rəqabət mühiti formalaşdırılmalıdır. Yarışlarda yüksək nailiyyətlər əldə edən idmançılar həvəsləndirilməlidir. İstedadlı gənclərin məlumat bankı yaradılmalı və hər yarışdan sonra yenilənməlidir.

Çıxışının sonunda Azər Zeynalov muxtar respublikada idmanın inkişafına, idmançıların hərtərəfli inkişafına göstərdiyi diqqət və qayğıya görə federasiya adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova minnətdarlığını bildirmişdir.

İclasda 2020-ci ildə yüksək nəticə göstərmiş idmançılar və məşqçi-müəllimlər Naxçıvan Muxtar Respublikası Güləş Federasiyası tərəfindən mükafatlandırılmışlar.

**“Şərq qapısı”**

*Əfsanəyə dönən ömürlər*

## “Gün o gün olsun ki, general formasında görüm səni”

## O, general rütbəsindən daha yüksək məqama ucaldı...

***Ölümün gözünə dik baxa bildiyimiz üçün bu Vətən, bu torpaq, bu yurd nə qədər faciələr yaşasa da, yaşamaq haqqını itirməyib. Var olub. Dediyimiz bir kəlmə söz, içdiyimiz and, verdiyimiz vəd əlimizdən tutub, bizi Vətən üçün şanlı ölümə aparıb. Məhz bu qətiyyət, cəsarət, mübarizlik, Vətənə olan sonsuz sevgi sayəsində şəhidlik adlı zirvəni fəth edən oğullarımızın sayı artıb. Vətən torpağı tam olsun deyə, hər an özlərinin ömür payını bu yola fəda ediblər. Qəhrəmanlığı alın yazısı seçən mərd oğullarımız dünən də olub, bu gün də var, sabah da olacaq.***

Elə Elməddin Qəhrəmanov kimi. Digər tay-tuşları kimi Elməddin də doğulub boya-başa çatdığı Qıvraq kəndində hərbi geyimdə insanlara tez-tez rast gəlirdi. Orta məktəb illərində Azərbaycan xalqının başına gətirilən müsibətlər, xüsusən də qonşumuz mənfur ermənilərin Xocalı soyqırımı törətməsi balaca Elməddində faşist ermənilərə qarşı bir nifrət oyatmışdı. Odur ki, qarşısına məqsəd qoymuşdu ki, böyüyüb hökmən zabit olacaq və itirilmiş torpaqlarımızı nəyin bahasına olursa-olsun geri qaytaracaq. Bu arzular onu peşəkar hərbçi olmağa gətirib çıxardı. Düzdür, onun bəzi arzuları yerinə yetirildi, Vətən müharibəsi zəfərlə başa çatdı. Lakin cənnət qoxulu şəhidimiz nə Zəfər paradında iştirak edə bildi, nə də ki nişanlısı ilə ailə qura bildi. Elməddin bütün Azərbaycan xalqının oğlu olmaqla, ən yüksək pilləyə – şəhidlik zirvəsinə ucaldı. Elməddin Niyaməddin oğlu Qəhrəmanov haqqında, onun keçdiyi qısa həyat və döyüş yolu barədə bəzi məqamları oxucularımıza da təqdim edirik:

– Elməddin 26 yanvar 1997-ci ildə Kəngərli rayonunun Qıvraq qəsəbəsində anadan olmuşdu. 2003-2011-ci illərdə Kəngərli rayon Qıvraq qəsəbə tam orta məktəbində, 2011-2014-cü illərdə isə Heydər Əliyev adına Hərbi Liseydə, daha sonra isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (2014-2018) təhsil almışdı. 2018-ci ildə leytenant hərbi rütbəsi alaraq Ağdam rayonundakı “N” hərbi hissəsində taqım komandiri kimi xidmətə başlamışdı.

Zabit yoldaşları arasında ünsiyyətcil olduğu üçün çox sevilən və xüsusi hörmətə malik bir zabit kimi nüfuz qazanmışdı. 2020-ci il yanvar ayının 26-da nişanlanan Elmədinin anası Təranə xanım deyir ki, toydan söz düşəndə niyəsə “hələ tezdir” deyərdi. Heç vaxt heç nəyə tələsməzdi. O qədər səbirliydi, Elməddin.



“Anasına bağlı olan ikinci belə bir övlad tanımırdım. Lakin onun şəhadəti ilə anasını sevdiyi qədər Vətənini də sevdiyini anladım”. Fəxarət dolu göz yaşlarını gizləməyə çalışan ananı dinlədikcə Elməddinlə fəxr etməmək əldə deyil. Toy etməyə, oğlunun şad gününü görməyə hazırlaşırdı ana. Amma Elməddin düşmənə toy tutmayınca toy etməyəcəyinə söz vermişdi. Elə sözünün ardınca da getdi.

Elməddin, “qəhrəman olmurlar, qəhrəman doğulurlar”, kəlməsinin həqiqətdə bir əksi idi. Sanki balaca yaşlarından bəlli idi onun gələcəyi, yüksələcəyi bu uca məqam. Anası əsl məramını sonralar başa düşdüyü bir xatirəsini bölüşdükdə Elməddinin yüksələcəyi o məqami qəlbində ən böyük amal kimi yaşatdığının şahidi oluruq: “Mənim qəhrəman oğlum özünə yeni hərbi geyim almışdı. Onu ütüləyib, səliqəyə salıb əyninə geyindirəndə, “gün o gün olsun, general forması geyinəsən” xeyir-duasını verdim. Bu zaman Elməddin dedi ki, mənim arzum general olmaq yox, daha yüksək məqamdı. O zaman nəyi ifadə etdiyini anlamasam da, “inşallah”, – deyə yola saldım. Şəhadət xəbəri gələndə dərk etdim ki, Elməddinin qəlbində yaşatdığı o yüksək vəzifə, o yüksək məqam Vətən uğrunda şəhid olmaq imiş”.

Atası Niyaməddin Qəhrəmanov deyir ki, Vətən darda olanda onun qeyrətli oğulları ondan ötrü can verməli, qan tökməli, onun sipəri olmalıdır. Elməddin də belə oğullardan idi. O, torpağa bağlılıq, Vətənə sədaqət ruhunda böyümüşdü.

Elə bil, torpaq üçün yaranmışdı. Bəlkə də, qismət belə imiş. Düşmən tapdağı altında qalan torpaqlarımızın azad olmasında Elməddinin də əməyinin olması qürur hissi yaşadır bizə.

Qardaşı onunla bağlı xatirələrini dilə gətirdikcə daha böyük yerə sahib olur qəlbimizdə qəhrəmanımız: “Mən onun balaca qardaşıyam. Aramızdakı yaş fərqi o qədər də çox deyildi. Buna görə onunla münasibətimiz bir dost kimi idi. Mənə qayğısı böyük qardaşdan daha artıq idi, bir ata qədər qayğıkeşdi qardaşım. Hər zaman mənimlə maraqlanan bir qardaş, ailəsinə bağlı bir övlad idi. Qayğıkeşliyi elə hərbi xidmət illərində də başlayıb hər kəsə. Əsgərlərinin hər biri Elməddindən ürək dolusu danışır, onu özlərinə təkcə komandir yox, qardaş bilirlər”.

Emin Qəhrəmanova qardaşının döyüş yolunu necə dəyərləndirirsən sualını verdikdə, fəxarət dolu bu sözləri eşitdim: “Qardaşımla hər zaman fəxr etmişəm, bu gün isə bütün Azərbaycan onunla fəxr edir. İlk xidmət yeri Ağdam idi. Xidmətə başladığı ilk andan gözü də, könlü də Ağdam məscidində idi. Anamla hər danışanda deyərdi ki, bircə o məsciddə azan oxunan günü görsəydim, kaş ki səni bircə dəfə o məsciddə namaz qılmağa apara bilsəydim, elə bilərdim ki, səni həccə aparmışam, ana. Hətta məscidin minarəsindən azan səsini özü ucaldacağına söz vermişdi. Lakin tale ona azan səsini yox, daha müqəddəs bir səsi yüksəltməyi nəsib etdi: torpaqlarımızın haqq səsini və bu yolda şəhid getməyin qürurunu”.

Emin Qəhrəmanov deyir ki, general Polad Həşimov şəhid olarkən, dedi ki, bu artıq geri dönüşü olmayan yoldur. Generalı şəhid olan bir ordu bununla barışa bilməz deyə, qardaşım qəlbində qisas və düşmənə nifrət hissini daha da alovlandırmışdı. Sentyabrın 27-də müharibənin başlanmasına sevinən Elməddin qisas günü gəldi deyə cəbhəyə atılmağın həyəcanını yaşadı. “Emin, qardaş, artıq gün, o gündür. Hiss edirəm, bunun sonu qələbə olacaq”, – anamı və nişanlımı sənə əmanət edirəm, – dedi və getdi.

Döyüş yoldaşları onun qəhrəmanlıqlarından bəhs edərkən deyirlər ki, Elməddinin komandirliyi ilə Qarabağda tarix yazdıq. Biz bu tarixlə fəxr edirik. Dəfələrlə güclü hücumlar olunsa da, qəhrəmancasına qarşısını aldı, əks-hücum əmri verməklə düşmənə ağır zərbələr endirdi. Oktyabrın 4-də gedən qızğın döyüşlər isə Elməddinin qəhrəmanlıq dastanında xüsusi yer tutur. Təkbaşına döyüşə atılan cəsur hərbçimiz ağır silahlardan istifadə edərək düşmənə sarsıdıcı zərbələr endirib, əsl cəngavər kimi düşməni yanıldaraq onlara ağır itkilər yaşadıb.

“Bu dəfə də nəsib olmadı şəhidlik”, – deyərək bu ali məqama çatmaq istəyini hər döyüş sonrası açıq bəyan edirmiş. Döyüş yoldaşlarını da bu ruhda irəli səsləyən Elməddin “Burada insan özünü yox, ancaq Allah insanı qoruya bilər. Qismətimə yazılıbsa şəhidlik, qanımın son damlasına qədər hazıram. Çünki biz bunun üçün seçilmişik”, – demişdi. Cəmi 2 gün sonra oktyabrın 6-da, nəhayət, Elməddin arzusuna çatır, şəhadət şərbətini içir. Düşmən hücumunu dəf edərkən ağır artilleriyadan aldığı zərbə nəticəsində Vətənə canını fəda etdi. Həmin gündən də Ağdamda naxçıvanlı qəhrəman kimi igidliyini dillərə dastan etdi. Soy isminin, damarında daşıdığı qanın, ayaq basdığı torpağın, Vətəninin ciyərlərinə çəkdiyi havasının, içdiyi suyunun belə, son damlasına qədər haqqını verdi şəhid qardaşımız. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə “Vətən uğrunda” medalı ilə təltif olunan Qəhrəmanov Elməddin Niyaməddin oğlu öz layiqli yerini aldı. Qeyd edək ki, Elməddin “Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)” yubiley medalı ilə də təltif edilmişdir.

Şəhidlər can qurban verərkən yox, unudularkən ölürlər. Sən heç zaman unudulmayacaq, Qarabağda dastan yazan qəhrəmanlarımızdan biri kimi daim qəlbimizdə yaşayacaqsan. Əziz şəhidimiz, sən hər birimiz üçün, hər zaman əzizsən. Çünki sənin kimi igidlərin cəfakeşliyi, fədakarlığı ilə bu torpaqlarda müstəqilliyimiz əbədi olacaq və sizin kimi oğullarla xalqımız daim qürur duyacaqdır.

**✍ Gülcamal TAHİROVA**

## Onlayn konfrans olub



*“Ümumtəhsil məktəblərinin ibtidai siniflərində pedaqoji və psixoloji işin təşkilinin müasir tələbləri” mövzusunda keçirilən onlayn konfrans Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi və Naxçıvan Müəllimlər İnstitutunun birgə təşkilatçılığı ilə reallaşdırılıb.*

Konfransda Naxçıvan Müəllimlər İnstitutunun rektoru Azad Novruzov bildirib ki, institutda bakalavr, magistr, doktorantura səviyyələri üzrə kadr hazırlığı ilə yanaşı, muxtar respublikada diplomdan sonrakı təhsilin istiqamətləri üzrə məqsədyönlü işlər aparılır. İxtisasartırma və təkmilləşdirmə kurslarının təşkili, ümumtəhsil məktəb müəllimləri ilə seminar, dəyirmi masa, disput, kitab müzakirəsi, qabaqcıl təcrübənin yayılması kimi tədbirlər həyata keçirilir.

Onlayn konfransda Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Rəhman Məmmədov muxtar respublikada təhsilə göstərilən dövlət qayğısından danışıb. Qeyd edib ki, 2019-2020-ci tədris ilində məzunlardan 236-sı Naxçıvan Müəllimlər İnstitutuna qəbul olub. Ötən tədris ilində 663 məzunun 73-ü 500-700 arası bal toplayaraq pedaqoji profilli ixtisaslara qəbul olub.

Konfrans bitdikdən sonra 35 ibtidai sinif müəllimi beşgünlük onlayn təlimə başlayıb.

***Naxçıvan Müəllimlər İnstitutunun mətbuat xidməti***

***İstənilən peşəkar idman növü insan sağlamlığına bu və ya digər dərəcədə mənfi təsir də göstərə bilər. Amma bəzi idman növləri var ki, onlarla peşəkar və ya qeyri-peşəkar şəkildə məşğul olduqda belə, insan sağlamlığı üçün heç bir təhlükə yaranmır. Kainat inkişaf etdikcə bütün sahələrdə dəyişikliklər olduğu kimi, idmanda da müəyyən yeniliklər baş verir: yeni idman növləri yaradılır, bəzi idman növlərində qaydalar müasirləşdirilir, bəziləri isə öz "hegemonluğunu" digərlərinə təhvil verir. Yeni püxtələşməyə və kütləviləşməyə başlayan idman növlərindən biri də skandinav yürüşüdür.***

# Yeni idman növü üzrə ölkəmizə ilk beynəlxalq uğuru qazandıran naxçıvanlı yeniyetmələr oldu

Ötən əsrin 40-cı illərindən başlayaraq idmançıların yaxşı fiziki vəziyyətdə qalması, təlimlərdə daha gümrah olması üçün müntəzəm tədbirlər tətbiq edilməyə başlandı. Bunun ən yaxşı göstəricisi isə Finlandiya ortaya qoydu. Belə ki, XX əsrin ilk yarısının bitməsinə az qalmış bədən tərbiyəsi üzrə ixtisaslaşmış Mark Cantanın yeni yürüş növünü kəşf etməsi qısa vaxt kəsiyində Mərkəzi və Şərqi Avropa ölkələrində geniş yayılmağa başladı. "Nordik", ingiliscədən tərcümədə "Şimal" və ya "Skandinaviya yürüşü" kimi ad qazanan bu idman növü qısa zamanda bir çox faydaları ilə insanların marağını çəkdi. Səbəbləri isə çox sadədir: "Nordik" gəzintisinin faydalarına baxdıqda insan təəccüblənməyə bilməz. Ümumiyyətlə, həkimlərin fikrincə, bu növ fitnes ürək-damar sisteminin fəaliyyətinə müsbət təsir göstərir. Belə ki, yürüş zamanı ürək və qan damarlarının fəaliyyəti yaxşılaşır, xolesterol parçalanır, beyinə qan təzyiqi yüksəlir. Digər tərəfdən, bu, bədənin oksigen istehlakının miqdarını artırmaq üçün effektli yoldur. Skandinav yürüşü digər idman növlərindən fərqli olaraq 46 faiz daha çox kalori yandırmasına kömək edir. Yeganə idman növüdür ki, hərəkət zamanı bədən əzələlərinin 90 faizi işlək vəziyyətdə olur. Hansı ki bu göstərici qaçışda 45, velosiped sürdükdə isə 50 faiz təşkil edir. "Nordik" yürüşü şəkər və təzyiq, kardiopatoloji xəstələr, ortopedik, sağlamlıq imkanları məhdud şəxslər, onurğa sütununun əyriliyi və fəqərəarası disk yırtıqları kimi problemləri olan insanlar üçün də ən ideal idman növüdür. Skandinav yürüşü üzrə ölkəmizə ilk beynəlxalq uğuru qazandıran isə naxçıvanlı yeniyetmələr oldu.





Məlumdur ki, muxtar respublikamızda idmana göstərilən dövlət qayğısı hər il bu sahədə yeni uğurların qazanılmasına şərait yaradır. Xüsusilə gənc nəslin fiziki inkişafında mühüm rol oynayan idman yeniliklərinə da özünə cəlb edir. Hər il muxtar respublikamızın gənc idmançıları ölkə və beynəlxalq yarışlarda iştirak edərək müxtəlif medallar qazanırlar. Məlum pandemiya ilə bağlı ötən il bir çox beynəlxalq idman yarışları təxirə salınsa da, onlayn qaydada bəzi yarışlarda iştirak edənlər də oldu. Onların arasında Naxçıvan şəhər 16 nömrəli tam orta məktəbin 8-ci sinif şagirdi Elşad Həsənli və həmin məktəbin 7-ci sinif şagirdi Vəli Həsənov da vardır. Onlar 2020-ci ilin noyabr ayında Özbəkistanın Səmərqənd şəhərində keçirilən beynəlxalq yarımarafonda həm qaçış, həm də skandinav yürüşü üzrə onlayn qaydada iştirak edərək müvafiq vaxt ərzində müəyyən olunmuş məsafəni qət etməklə medallar qazanıblar. Qeyd edək ki, 13 və 14 yaşlarındakı bu yeniyetmələr skandinav yürüşü üzrə beynəlxalq yarışda hər biri 23 kilometr məsafəni ilk başa vurmaqla ölkəmizə bu növ üzrə ilk medalları gətiriblər.



Hər iki idmançı ilə söhbətimizdə öyrəndik ki, onlar Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının üzvləridir. Lakin məlum səbəblərə görə, ötən il güləşlə bağlı yarış və məşqlərdə iştirak edə bilməyiblər və Elşadın atasının skandinav yürüşünə böyük həvəs göstərməsi onları da bu idman növünə cəlb edib. İl ərzində davamlı olaraq bu yürüşlə məşğul olan uşaqlar məşqlər zamanı muxtar respublikamızın təbiət mənzərələrinin də fotolarını çəkərək sosial şəbəkələrdə paylaşıblar. Bu isə digər xarici ölkələrdə olan maraq kanlarda bu idman növü üzrə məşğul olanların diqqətini cəlb edib. Hətta Polşa, Serbiya, İtaliya, Ukrayna, Rusiya, Belarus, Özbəkistan kimi ölkələrin Skandinav Yürüşü federasiyalarının üzvləri Naxçıvanla bağlı həmin fotoşəkilləri özlərinin sosial şəbəkə hesablarında paylaşıblar. Bu isə onları daha da həvəsləndirib və Özbəkistan təmsilçilərinin təklifi ilə Səmərqənddə keçirilən yarımarafonda həm qaçış, həm də skandinav yürüşü üzrə onlayn qaydada iştirakçı olublar. Qaçış üzrə 2 kilometr məsafəni müəyyən olunmuş müddətdə başa vuran Elşad Həsənli və Vəli Həsənov skandinav yürüşü üzrə yarışda yaş kateqoriyasını aşaraq hər biri 23 kilometr məsafə qət edərək marafonu uğurla başa çatdırıblar.

Yeniyetmələrimizin böyük sevgi, əzmkarlıq və iradə ilə bu idman növünə ürəkdən bağlanmalarının, uğurlarının səbəbkarı olan Səbuhi Həsənovla isə skandinav yürüşündə, əsasən, nələrə diqqət etməyin lazım gəlməsindən danışdıq. O bildirdi ki, bu yürüş növündə insan güc itirmir, gövdə sərbəst və hamar bir şəkildə hərəkət edir. İstifadə olunan çubuqlar ayaqların ritminə görə hərəkət etdirilir: sağ ayaq irəli hərəkət edərkən sol çubuq geridə qalır və əksinə. Yürüyərkən qamət düz tutulmalı, ayaqlar adi yerişdən fərqli olaraq daha çox açılmalı, qollar arxaya sonadək aparılmalı və arxaya hərəkətdə əllər çubuğun yapışdığı yerdən buraxılaraq önə hərəkət yerdəyişməsində yenidən tutulmalıdır. Bununla yanaşı, yürüşdən qabaq isinmə hərəkətləri edilməli, ayaqqabılar və paltarlar rahat olmalıdır.

Bu sahə üzrə təcrübəsini bizimlə bölüşən həmsöhbətim onu da qeyd etdi ki, skandinav yürüşü üçün çubuqlar dağlıq ərazilərdə istifadə olunan çubuqlarla (trekinq) oxşarlıq təşkil etsə də, onlardan fərqlənir. Belə çubuqların seçilməsi bir neçə xüsusiyyətə əsaslanmalıdır. Belə ki, çubuqlar keyfiyyətli və yüngül olmalı, uc hissəsi yüngül lehimli materialdan hazırlanmalıdır. Bundan əlavə, çubuq bərk örtüklü yerlərdə (asfalt, beton və başqa) hərəkət etmək üçün rezin başlıqla (başmaq) təchiz olunmalıdır. Vacib aspektdən biri çubuğun gücünü və uzunluğunu göstərir. Bu, sahibinin çəkisi və artımı əsasında hesablanmalıdır. Ümumiyyətlə, çubuqlar üçün material karbon və ya alüminiumdan ibarət olur. Çubuqların uzunluğu atletin öz boyunun hündürlüyünə görə hesablanır. Məsələn, hər santimetr artımı 5 santimetrə vurulur. Yəni atletin hündürlüyü 185 santimetrdirsə, o, təxminən, 125 santimetr uzunluğunda bir çubuq seçməlidir. Uzunluq əzələlərin yükündən də asılı olur. Skandinav yürüşünün ən üstün cəhətlərindən biri də odur ki, bu idman növü ilə məşğul olmaq üçün yaş məhdudiyyəti yoxdur, hər kəs məşğul ola bilər. Getdikcə populyarlaşan bu idman növü ilə hazırda dünyada 40 milyondan çox insan məşğul olur.

Müsahibim onu da vurğuladı ki, relyef baxımından əlverişli mövqedə olan muxtar respublikamızda bu idman növünün inkişafı üçün hər bir imkan var. Gələcəkdə bu növün kütləvi hal alması, beynəlxalq turnirlərin keçirilməsi həm də diyarımızın turizm imkanlarının beynəlxalq səviyyədə təbliğində mühüm rol oynayar.

Biz də əminik ki, yeniyetmə və gənclərimizin fiziki və mənəvi tərbiyəsinə, onların cəmiyyət üçün yararlı, mükəmməl şəxsiyyət kimi yetişmələrinə, idmanın inkişafına hərtərəfli qayğı göstərilən diyarımızda bu yeni idman növü də tezliklə öz azarkeşlərini ətrafına toplayaraq böyük şöhrət tapacaq, digər idman növləri kimi skandinav yürüşü üzrə də böyük uğurlar qazanacağıq.

**✍ Ceyhun MƏMMƏDOV**

## Qazilərə tibbi xidmət göstərilib



Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkim briqadası tərəfindən Vətən müharibəsində iştirak edən və yaralanan hərbçilərimizin müalicəsi, onlara səhiyyə xidmətinin göstərilməsi davam etdirilir.

Növbəti humanitar tibbi aksiya Şahbuz rayonunda təşkil olunub.

Aksiya zamanı xəstəxananın 10-a yaxın travmatoloq, nervopatoloq, çənə cərrahı, terapevt və digər ixtisaslı həkim heyəti Vətən müharibəsi qazilərinə evlərində tibbi xidmət göstərib. Onlar müxtəlif müayinələrdən keçirilib, tibbi yardımla, dərman və tibbi maskalarla təmin olunub, müvafiq təyinat və məsləhətlər verilib. 2 qazi fizioterapevtik müayinə və müalicə üçün Naxçıvan Muxtar Respublika Xəstəxanasına dəvət edilib.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində şəhid ailələrinə, Vətən müharibəsi qazilərinə və onların ailə üzvlərinə göstəriləcək səhiyyə xidmətinin keyfiyyətinə nəzarətin təmin edilməsi üçün komissiya yaradılıb. Komissiyanın təşkilatçılığı ilə növbəti aksiyanın Babək və Ordubad rayonlarında keçirilməsi nəzərdə tutulub.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Şahmatın kütləviliyi təmin edilir

*Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyası tədbirlər planına uyğun olaraq növbəti interaktiv dərs və yarışlar keçirib.*

Belə ki, Şahmat Federasiyası, Babək Rayon Uşaq-Gənclər Şahmat Məktəbi, Quba Şahmat Məktəbi, "İdea" şahmat klubu, "Bakı Grandmaster" şahmat klubu, Türkiyənin Hatay "Şah" şahmat klubu, "Söke Remzi Zeytinoğlu" şahmat klubu və "Albio" şahmat klubunun təşkilatçılığı ilə 7 komanda arasında yoldaşlıq oyunu keçirilib. *Lichess.org* platforması vasitəsilə keçirilən görüşdə müxtəlif dərəcəli şahmatçı şagirdlər iştirak ediblər. Bununla yanaşı, federasiya Şərur Rayon Uşaq-Gənclər Şahmat Məktəbi və Türkiyənin nüfuzlu "Mersin Modern" şahmat klubu ilə birgə 20 Yanvar şəhidlərinin əziz xatirəsinə həsr edilmiş klublararası yoldaşlıq oyunu da təşkil edib.

Təqvim planına uyğun olaraq Şahbuz, Sədərək və Kəngərlidə rayon Uşaq-Gənclər şahmat məktəblərinin, Təhsil şöbələrinin, Gənclər və İdman idarələrinin təşkilatçılığı ilə 20 Yanvar şəhidlərinin xatirəsinə həsr edilmiş şahmat turnirləri keçirilib. İsveçrə sistemi üzrə keçirilən yarışlarda qaliblər mükafatlandırılıb.

Naxçıvan Şahmat Mərkəzində "Naxçıvan şahmatçılarının oyunlarının təhlili" və "Məsələ həlli" mövzularında növbəti interaktiv dərs keçilib. 200-dən artıq ümumtəhsil məktəbinin şagirdləri üçün elektron lövhədə təşkil edilən dərsdə şahmat fənnini tədris edən müəl-



limlər iştirak edib. Dərsi beynəlxalq dərəcəli hakim Emin Hacıyev aparıb. Emin Hacıyev elektron şahmat proqramları, "Siciliya müdafiəsi" və "Etüdlərin həlli" haqqında ətraflı məlumat verərək bildirib ki, müasir şahmatın öyrənilməsində elektron şahmat proqramlarından mütləq istifadə etmək lazımdır. *"lichess.org", "chess.com"* kimi internet səhifələrindən istifadə bu gün muxtar respublika məktəblərində geniş tətbiq olunur. Sonra muxtar respublika şahmatçılarının oyunları təhlil edilib. Bundan başqa, federasiyanın "YouTube" səhifəsində dərslər yerləşdirilib və eyni zamanda CD formasında məktəblərə çatdırılıb.

Federasiya üzvlərinin istirahət vaxtlarının səmərəli təşkili üçün Naxçıvan şəhərindəki Saat Meydanında yerləşən "Cinema Plus" kinoteatrında "The Queen's Gambit" filmi izlənilib.

**✍ C. MƏMMƏDOV**

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:** Mənzili kirayəyə götürərkən yazılı müqavilə bağlamaq lazımdırmı?*

***Cavab:*** Təcrübə göstərir ki, əksər hallarda mənzili kirayəyə götürərkən kirayə verənlə kirayəçi şifahi razılığa gəlirlər. Lakin bu hal sonradan hər iki tərəf üçün müəyyən problemlərin yaranmasına şərait çıxara bilər. Qüvvədə olan mülki qanunvericiliyin tələbinə görə, daşınmaz əmlakın dövlət reyestri obyektlərinə dair sərəncam verilməsi haqqında müqavilələr notariat qaydasında təsdiqlənməlidir. "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanunun 19.1-ci maddəsinə əsasən (Maddə 19. Daşınmaz əmlak üzərində icarə və istifadə hüquqlarının dövlət qeydiyyatı) daşınmaz əmlak üzərində müddəti on bir aydan çox olan icarə və ya istifadə hüququ dövlət qeydiyyatına alınır. İcarə və ya istifadə hüququnun dövlət qeydiyyatına alınması barədə ərizəni daşınmaz əmlakın icarə (istifadə) müqaviləsi üzrə tərəflərdən biri verə bilər. Daşınmaz dövlət əmlakı üzərində icarə (istifadə) hüququ, daşınmaz dövlət əmlakı üzərində icarə (istifadə) müqaviləsi bağlamaq hüququ olan müvafiq icra hakimiyyəti orqanının müraciəti əsasında dövlət reyestrində qeydiyyata alınır. Ərizənin və müraciətin formaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsi***

* * *

***Sual:** Hansı mallarda yararlılıq müddəti göstərilməlidir?*

***Cavab:*** İstehlakçıların hüquqlarının müdafiəsi haqqında Azərbaycan Respublikasının Qanununa əsasən tez xarab olan və insanların sağlamlığına, həyatına və əmlakına, habelə ətraf mühitə təhlükə kəsb edən ərzaq məhsullarının, dərmanların, ətriyyat-kosmetika vasitələrinin, kimya məhsullarının və başqa malların üzərində (qablarında) və ya onlara əlavə edilən müvafiq sənədlərdə yararlılıq müddəti göstərilməlidir. Yararlılıq müddəti ötmüş malların satışı qadağan edilir.

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***

***İtmişdir***

"Gəmiqaya Elm və Tədris Mərkəzi" MMC-nin sənədləri itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

**Ünvan:** ***AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.***
***Telefonlar: Məsul katib: 545-62-47***
***Şöbələr: 545-81-44, 545-51-18***
***Müxbirlər: 545-75-21, Faks: 544-52-52***
**E-mail:** *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Nail Əsgərov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1500. Sifariş № 73**